*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 258-266*

https://doi.org/10.62837/2025.2.258

**MİNUR HÜSEYNZADƏ**
*Lənkəran Dövlət Universiteti*
*Magistrant, "Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası", II kurs*
minur.huseynzade@gmail.com

# M.Ə.SABİRİN SATİRİK İRSİNDƏ CƏHALƏTLƏ YENİLİYİN MÜBARİZƏSİ

**Açar sözlər: M.Ə.Sabir, satira, yenilik, cəhalət, təhsil məsələləri.**

**Xülasə**

Tarixin müxtəlif dövrlərində baş verən hadisələrə şairlərin, yazıçıların özünəməxsus baxışı və ifadə usulu olmuşdur. Dövrün eybəcərliklərini, çatışmayan cəhətlərini ifşa etmək baxımından tənqidi-satirik əsərlər daha çox qələmə alınmışdır.Məhz satiranı, satirik gülüşü yaradan da dövrün sosial-mənəvi reallıqları, insanların şərə qarşı münasibəti, avamlıq, cəhalət, ətalət, girdabında olan, qəflət yuxusuna yatmış insanlar olmuşdur. Satiraları ilə dövrünü ayna kimi əks etdirən şairlərdən biri də M.Ə.Sabirdir. Məqalədə Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi, satirik gülüşün ustadı M.Ə.Sabir və onun dövrün aktual problemlərindən biri olan cəhalət ilə yeniliyin qarşıdurması, mübarizəsi məsələsinə toxunulmuşdur. Satirik irsində öz əksini tapan çoxsaylı nümunələr əsasında bir-birinə əks mövqedə valideyn obrazları müqayisə edilmişdir. Bu nümunələr əsasında cəhalət və yeniliyin mübarizəsi məsələsi aydı şəkildə məqalədə öz əksini tapmışdır. Oxumağı, elm öyrənməyi yeniliyə doğru bir addım kimi dəyərləndirən şair nəinki şeirlərində cəhaləti,avamlığı ifşa etmiş. eyni zamanda oxumağa, elmə cağırış ruhlu şeirlər də qələmə almışdır. Eyni zamanda Sabirin ifşa üsulları-tipi öz dili ilə ifşa etmək, istər monoloji, istərsə də dialoji nitqlərində, danışaraq özlərini ifşa etmələri də nümunələr əsasında məqalədə öz əksini tapmışdır. Şair nadanlıq, cəhalət qütbünə qarşı yenilik tərəfdarı, maarifçi obrazlar da yaratmışdır. Bütün bu məsələlər məqalədə geniş şəkildə işıqlandırılmışdır.

**MINUR HUSEYNZADE**

## THE STRUGGLE OF IGNORANCE AND INNOVATION IN M.A. SABIR'S SATIRICAL LEGACY

**Keywords: M.A.Sabir, satire, innovation, ignorance, educational issues.**

**Summary**

Poets and writers had a unique view and way of expressing events that happened in different periods of history. More critical-satirical works were written in order to expose the ugliness and shortcomings of the era. It was the socio-spiritual realities of

the era, people's attitude towards evil, vulgarity, ignorance, inertia, people who were in the vortex and fell asleep in the sleep of heedlessness that created satire and satirical laughter. M.A. Sabir is one of the poets whose satires reflect his era like a mirror. In the article, M.A. Sabir, the most prominent representative of Azerbaijani literature, the master of satirical laughter, and his struggle against ignorance and innovation, which is one of the current problems of the era, are touched upon. On the basis of numerous examples reflected in the satirical heritage, the images of parents in opposite positions were compared. Based on these examples, the issue of the struggle between ignorance and innovation is clearly reflected in the article. The poet, who values reading and learning science as a step towards innovation, not only exposed ignorance and vulgarity in his poems. at the same time, he also wrote poems with a call to reading and science. At the same time, Sabir's methods of exposure - exposing the type with his own language, whether in his monologue or dialogic speeches, exposing himself by speaking, are also reflected in the article based on examples. The poet has also created enlightening images against the pole of ignorance and ignorance. All these issues are extensively covered in the article.

**Минур Гусейнзаде**

## БОРЬБА НЕВЕЖЕСТВА И НОВАТОРСТВА В САТИРИЧЕСКОМ НАСЛЕДИИ М.А.САБИРА

**Ключевые слова: М.А.Сабир, сатира, новаторство, невежество, вопросы воспитания.**

### Краткое содержание

Поэты и писатели обладали уникальным взглядом и способом выражения событий, произошедших в разные периоды истории. Более критически-сатирические произведения были написаны с целью обличить уродства и недостатки эпохи. Именно социально-духовные реалии эпохи, отношение людей к злу, пошлости, невежеству, косности, людям, находившимся в водовороте и уснувшим сном беспечности, создавали сатиру и сатирический смех. М. А. Сабир – один из поэтов, чьи сатиры словно зеркало отражают его эпоху. В статье затрагиваются виднейший представитель азербайджанской литературы, мастер сатирического смеха М.А.Сабир, его борьба с невежеством и новаторством, что является одной из актуальных проблем эпохи. На основе многочисленных примеров, отраженных в сатирическом наследии, сравнивались образы родителей, находящихся в противоположных позициях. На основе этих примеров в статье наглядно отражен вопрос борьбы невежества и новаторства. Поэт, который ценит чтение и изучение науки как шаг к инновациям, в своих стихах не только разоблачал невежество и пошлость. в то же время он писал и стихи с призывом к чтению и науке. В то же время в статье на примерах отражены и методы разоблачения Сабира - разоблачение

типа при помощи его собственного языка, будь то в его монологе или диалогических речах, разоблачение себя в разговоре. Поэт также создал просветляющие образы против полюса невежества и невежества. Все эти вопросы подробно освещены в статье.

**Giriş**

Məlumdur ki, hər bir dövrün aktual problemləri olur.Şair və yazıçılar bu taleyüklü problemlərə müxtəlif aspektdən yanaşaraq, özünün sənətkarlıq süzgəcindən keçirib qələmə alırlar.XIX əsrin sonu, XX əsrin əvvəllərində ədiblərin qarşılaşdığı mənzərələrdən biri də məhz nadanlıq, cəhalət ilə tərəqqi və yeniliyin mübarizəsi olmuşdur. Bu mövzuda bir çox əsərləri biz nümunə göstərə bilərik. Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi, Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" əsərində, eləcə də digər sənət əsərlərində şərlə, başqa sözlə desək cəhalətlə yeniliyin mübarizəsi əsrində dövrün problemi kimi diqqəti cəlb edir. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsində əsas konfilikt köhnəliklə hələ nisbətən zəif olan yenilik arasındakı mübarizə və bu mübarizədə iki tərəf "zülmət səltənətinin" tipik nümayəndəsi Rüstəm bəy və yenilik tərəfdarı, ziyalı Fəxrəddin bəy qarşı-qarşıya durur. Yazıçı Fəxrəddin bəy vasitəsiylə özünün düvrlə bağlı düşüncələrini açıb göstərmişdir: " Xudaya! Gör biz müsəlman necə bədbəxt, vəhşi, nadan tayfayıq ki, bir nahaq, bimənа işdən ötrü bu mərtəbədə müsibətlər, düşmənçilik bəhəm eləmişik. (Səktə.) Vallahı, deyirəm, belə hərəkətlərə dürüst fikir verəndə, belə görünür ki, guya biz müsəlman tayfaların üstə göydən lənətnamə yenib ki, işığa çıxa bilməyəcəksiniz, həmişə zülmətdə qalıb, vəhşi nadanlıq gücü ilə bir-birinizi tələf edəcəksiniz... Aşkar görürəm, sübut uzaqda deyil... Mən buraya gələn üç ay deyil, bu üç ayın ərzində iki yüz adam, dəxi də artıq, elə bizim ətrafda bir-birini tələf ediblər. Məgər bu vəhşi nadanlıqdan deyil? İnsaf yox, mürüvvət, qanacaq, tərbiyət yox, məgər şəriət bizə göstərən yol budur?" [8, 120]

Fəxrəddin bəy obrazı ilə eyni mövqedə duran obrazlardan biri də Ə.Haqverdiyevin "Bəxtsiz cavan" əsərinin maarif, yenilik tərəfdarı olan Fərhad bəydir. Köhnəlik timsalında duran atası Hacı Səməd ağa obrazı ilə onlar zidd mövqedə dururlar. "Bağışlayın, əmi, insan ki elm oxudu, gərək onun elmindən elmsizlər az-çox mənfəətbərdar olsunlar. Elm oxuyanlar gərək korlara göz, qaranlıqda qalanlara çıraq olsunlar. Elmli adamlar hamıdan artıq bizlərə lazımdır." [2, 83] Doğrudur, əsərin sonunda Fərhad ölsə də onun dostu Musanın dedikləri,onun mübariz obrazı yeniliyə bir ümid yaradır:" Musa. Dəli olma, uşaq deyilsən. Mərdanə olginən. Kişi gərək hər müsibətə mərdanəliklə davam eləyə." [2, 101]

Köhnəliklə yeniliyin mübarizəsini geniş şəkildə satirik əsərlərdə də görə bilərik. Bu baxımdan satiranın ustadı M.Ə.Sabirin satirik irsi olduqca zəngindir. Şair tərəqqini, inkişafı elm öyrənməkdə görür və nadan insanlara qarşı yeniliyə çağırış ruhlu satirik şeirlərində qələmə almışdır.

**Əsas hissə:**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 258-266*

Gülüş şairi olan Sabirin vətəni, xalqı, millətinin gələcəyi üçün hiss etdiyi duyğuları ürəyinin qanı ilə qələmə aldığı satirik irsində aydın şəkildə görə bilirik. Yazdığı satirik şeirləri ilə daima insanları düşünməyə vadar etmiş,nəinki dövrünün cəhalətini, avam kütlənin geriliyini ifşa etmiş, həm də yeniliyə, hürriyyətə, elmə, təhsilə çağırış ruhlu şeirlər də qələmə almışdır.

Ədəbiyyatımıza yaradıcılığı ilə yeni bir libas geydirən şair satirik gülüşdən, müxtəlif ifşa usullarından məharətlə istifadə edərək gülüşün arxasında gizlənən göz yaşlarına səbəb olan,demək olar ki,toxunmadığı mövzu qalmamışdır.Təbib kimi dövrünün cəhalət azarına düçar olan insanları dərman bildiyi gülüş vasitəsilə sağaltmağa çalışmışdır. M.Ə.Sabirin satirik irsinə nəzər saldıqca satiralarında, mənzum hekayələrində və.s onu düşündürən məsələlər içində ziddiyyətli bir məqam diqqəti cəlb edir.Qeyd etmək lazımdır ki, biz burda olan ziddiyyəri, bir-birinə əks qütbdə duran insanları, onların düşüncələrini köhnəlik ilə yeniliyin, ətalətlə tərəqqinin, cəhalətlə müasirliyin mübarizəsi timsalında ifadə edə bilərik. Məhz bu mövzuda yazdığı satirik şeirlərində şair avam, elmə, məktəbə xor baxan, xurafatçı, cəhalət tərəfdarı tiplərə qarşı, yenilikçi, inkişafı, dirçəlişi elmdə, məktəbdə, təhsildə görən obrazlar yaratmışdır. Elmi ədəbiyyatda haqlı olaraq deyilir ki, "Maarif və mədəniyyətdən oddan qorxan kimi qorxan, hər hansı bir yenilikdən qaçıb yarasalar kimi zülmətdə gizlənən bu tiplər Sabir satirasının əsas hədəfləridir." [5, 58]
"Ol gün ki,sənə xaliq edə lütf bir övlad" , "Neçin məktəbə rəğbətim olmayır?" , "Bilməm nə görübdür bizim oğlan oxumaqdan?" , "Bəxtəvər" , "Arzu" , "Oxutmuram,əl çəkin!" , "Ata nəsihəti" və.s satiralarında cəhalət. nadanlıq. xurafat prizmasından dünyaya baxan valideynlər varsa, "Məktəb şagirdlərinə töhfə" , "Məktəbə tərğib" , "Elmə tərğib" şeirlərində inkişafı, tərəqqini elmdə, maarifdə görən yenilikçi qüvvələr təsvir olunmuşdur. M.Ə.Sabirin məhz bu şeirlərindən görə bilərik ki, onun ifşa usulları müxtəlifdir."Sabirin satiralarında şüur dairəsinin məhdudluğu üzündən öz xoşbəxt vəziyyətindən şikayətlənən tiplər çoxdur. Avam bir qadının öz şair ərindən şikayətlənməsi, avam kişinin oğlunun sosial-demokrat hərəkatına qoşulacağından narazı olaraq acığı tutması və.s bir tərəfdən oxucunu güldürür, digər tərəfdən isə düşündürüb ağladır."[3, 246] Nümunə olaraq "Çatlayır,xanbacı,qəmdən ürəyim" misrası ilə başlayan satirasında avam qadının şair ərindən şikayətlənməsi, öz dili ilə özünü, ata evində olarkən yaşayış tərzini ifşa edir:
Nə bilirdik nə zəhirmardı kitab?
Biz olan evdə haçan vardı kitab?

Büsbütün gül kimi insanlarıdıq,
Nə müəllim və nə dərs anlarıdıq.
Dəftərin andıra qalmış sözünü
Eşidib görməmiş idik üzünü. [6, 212-213]

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 258-266*

Qadın obrazı cəhalətin, avamlığın. geriliyin, ətalətin numayəndəsidirsə, həyat yoldaşı yeniliyin, inkişafın təcəssümü şəklində öz ifadəsini tapır. Avam qadın əri barəsində deyir:

Ər deyil, şair imiş xanəxərab!
Fikri yazmaq, oxumaq, suglu kitab....

Saldız axırda yaman hala məni,
Ərə verdiz də bu qəffala məni.

Gah yazır, gah oxuyur, gah danışır,
Gündə bir hərzə kitabnan tanışır; [6, 213]

"Adamların, əsasən, geridə qalmış tənqid obyekti olan tiplərin zehninə, mənəvi aləminə nüfuz etmək, bu aləmi əyaniləşdirmək və bu vasitə ilə oxucuda gülüş, nifrət və qəzəb hissi doğurmaq şairin çox sevdiyi və işlətdiyi üsullardandır. Adətən belə hallarda şair öz tənqid obyektini, mənfi qəhrəmanını dindirir, onun şüur səviyyəsini satira hədəfinə çevirir." [4, 165] "Ol gün ki,sənə xaliq edə lütf bir övlad" , "Bəxtəvər" , "Oxutmuram,əl çəkin!" , "Bilməm nə görübdür bizim oğlan oxumaqdan?!" satiraları bu baxımdan səciyyəvidir.

"Bilməm nə görübdür bizim oğlan oxumaqdan?!" satirasında cahil valideyn oğlunun məktəbə getməsini istəmir, oğluna quldurluğun, "qol gücünə" dolanmağın, yol kəsməyin hünər olduğunu söyləyir. Lakin ataya əks mövqedə duran ana obrazı burda oğlunu oxumağa sövq etmişdir. Cəhalət dünyasına qarşı qoyulan ananın, oğlunu elm, məktəb yoluna sövq etməsi atanın dilindən söylənilən kəskin etirazlarla cahilliyini görmək çətin deyildir:

Söz etməz əsər, çarə qalıb indi duayə,
Tədbir elə, övrət!
Lənət sənə, ifritə, sənindir bu cəhalət,
Etdin nə xəyanət!
Bu tifli oxutmaqla etdin məni tərğib,
Həp eylədin iğva.
İndi nədi fikrin? İşimiz oldu bu tərkib,
Yox çarəsi əsla.
Heyhat ki, tədbir ola bu xanəxərabə,
Zail olub əqli.
Dərsə, qəzetə, məktəbə, jurnala, kitabə
Mail olub əqli.
Yıxdın evimi, eylədin övladımı zaye,
İş keçdi məhəldən.
Mən anlamaram elm nədir, ya ki sənaye,
Zarəm bu əməldən!

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 258-266*

İstərdim o da mən kimi bir hörmətə çatsın,
Azadə dolansın;
Ta qol gücünə malik olub şöhrətə çatsın,
Dünyadə dolansın; [6, 44-45]

Başqa bir valideyn "Oxutmuram,əl çəkin!" satirasında elmin, məktəbin xeyrini başa düşmür və "oğlunu məktəbə ver" deyənlərə qarşı açıq hücuma keçir:
Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Gərçi bu bədbəxt özü elmə həvəskardır,
Kəsbi-kamal etməyə səyi dəxi vardır,
Məncə bu işlər bütün şiveyi-küffardır,
Dinə zərərdir, zərər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin! [6, 272]

Ata cahil, avam olsa da,öz dili ilə dediyi kimi oğlu oxumaq istəyən, elmə həvəsi olan, qaranlıq mühitdən insanların xilası üçün gərəkli olacaq günəşin bir zərrəsi, şuasıdır.

M.Ə.Sabir "Bəxtəvər" adlı satirasında isə nadan,cahil atanın sərxoş halda səhərdən axşamadək gəzən oğlunun özündən zəifləri incitməsini "hünər" hesab edir, fərəhlənir:
Oğlumuz, ay Xansənəm, bir yekə pəhləvan imiş!
Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş!

Durmuş idim küçədə, bir də nə gördüm, həman
Ağrısını aldığım Feyzi gəlir lap piyan,
Çatcaq urub bir qoca saili, qusdurdu qan,
    Gözlərinə döndüyüm sanki bir aslan imiş,
    Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş!
Yaxşı olub mən bunun bəxtini çöndərmədim,
Bir para pis işlərə fikrini döndərmədim,
Qonşumuzun oğlu tək məktəbə göndərmədim,
    Doğrusu, məktəb demək guşeyi-zindan imiş!
    Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş! [6, 168]

Ata oğlunu məktəbə göndərməyib, onun həyatını zindan etmədiyi üçün sevinir. Məktəbə xor baxan ata elmin dini etiqada xələl gətirəcəyindən, dərsin dinə fəsad vuracağından ehtiyat edir. Eyni zamanda Sabirin şeirlərini,ordakı valideyn obrazlarının ziddiyyətini.cəhalət ilə yeniliyin mübarizəsini bu şəkildə müqayisə edə bilərik. "Təhsili-elm" satirasında əski mühitin buxovları arasında sıxışıb qalan dar düşüncə sahibi valideynin dilindən deyilir:

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 258-266*

Elm içrə xəta olduğun ondan bilirəm kim,
Bilsə nola hər kim,
Elmə gəzənin küfrü zəbanlarda bəyandır,
Təkfirə nişandır.
Məktəb sənə xoş gəlməsin, ol cayi-xətərnak,
Girmə ona çalak;
Məktəb dediyin qeydi-dilü bəndi-zəbandır,
Qarətgəri-candır.
Çernil nədir? Ol qəlbi qara hoqqeyi-dilxun,
Olma ona məftun!
Ağ günlərini etmə qara, Allah, amandır!
Bu rəng yamandır.
Dəftər nədir? Ol hərzələrin həmdəmi-razi,
Cövfi dolu yazi; [6, 54]

Elmin xəta olduğunu. veyil-veyil dolanmağın iftixar olduğunu söyləyən cahil ataya qarşı Sabir "Məktəbə tərğib" şeirində övladını məktəbə getməyə həvəsləndirir, elmsizliyin bəla olduğunu söyləyən yeniliyin tərəfdarı olan valideyn obrazını yaratmışdır:

Nəsihət al, nəsihət,
Qıl kəsbi-elmə qeyrət!
Elmsizlik bəlası
Müşkül olur, həqiqət.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!

Məktəbdə var şərafət,
Dəftərdə var lətafət.
Cari olur qələmdən
Şirin-şirin hekayət.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım! [7, 108]

Yeniliyin tərəfdarı olan ata oğluna nəsihət verir. "Qədrin bil elmü fəzlin" deyərək, hətta elm yolunda can verməsini,müəllimə ehtiram etməsini və öyrətdiklərini yadda saxlamasını söyləyir. Bu ziddiyyətli məqamı eyni zamanda atanın oğluna nəsihəti fonunda yazılmış "Ata nəsihəti" satirasında da görürük:

Bəsdir, ey oğul, boş yerə bu elmə çalışma,
Qanun tələf oldu!
Gündüz, gecə səy eyləyibən dərsə alışma,
Canın tələf oldu!
Bu şəhrdə çoxdur, görürəm, elm oxuyanlar,

Onlar nə tapıblar?
Divanədilər malını bu yolda qoyanlar
Guya ki, yatıblar.
Çoxdur zərərli adəm üçün elm oxumağın,
Sən say və deyim mən: [6, 56]

Əgər bu satirada elmə yiyələnlərin nəyəsə sahib olmadıqlarını.elm oxumağın zərərli olmasını söyləyən valideyn obrazı varsa "Elmə tərğib" satirasında oxumağa, elmə, məktəbə çağırış ruhu öz əksini tapmışdır:

Elmin izzəti payidar olur,
Cəhlin nikbəti canşikar olur;
Hər kəs elm oxur, bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.
Oxuyan, əzizlər, oxumaq zəmanıdır!
Oxumaq hər adəmin ədəbi nişanıdır! [7, 110]

Cəhalət ilə yeniliyin mübarizəsini şair təkcə monoloji nitq ilə deyil, yaratdığı tiplərin dialoqu vasitəsiylədə yifşa edə bilmişdir. "Bir cəhət də qeyd olunmalıdır ki, şair bəzən monoloji deyil,dialoji nitqə də yer verir, canlı, təbii söhbət əsnasında müsahiblərindən birinin,yaxud hər ikisinin cahilliyi, geriliyi ortaya qoyulur."[1, 73] "Sual-cavab" formasında yazılmış "Cavan və qoca" və dialoq şəklində verilmiş "Əhvalpürsanlıq,yaxud qonuşma" kimi şeirlərini nümünə göstərmək olar. "Cavan və qoca" dialoqunda cavan yeniliyin, qoca isə ətalətin, cəhalətin tərəfdarıdır. Şeirdə oxuyuruq:

- Oxuyurmu qəzetə şəhrinizin əhli tamam?
- Bəzi sarsaq oxumuşlar oxuyur, mən oxumam! ,
- Ölkənizdə açılıbdırmı qiraətxanə?
- Tazələr açmış idi, qoyduq onu viranə! [6, 147]

Dialoq davam etdikcə qocanın əsl eybəcər xisləti ortaya çıxır. Oxumuşları sarsaq adlandıran qoca özünün oxumaması ilə fəxr edir, qürrələnir. Eyniylə belə bir dialoqa "Əhvalpürsanlıq,yaxud qonuşma" şeirində də görə bilərik. İki həmşəhərlinin söhbəti zamanı onların yeniliyə,inkişafa düşmən olduqları bəlli olur. Burada bir tragikomiklik özünü göstərir, Komiklik ondadır ki, özləri kafir, yolunu azmış, insanlıq nə olduğunu bilmirlər, lakin yenilik yolunda olanları, övladını məktəbə qoyanları, qəzet alıb oxuyanları babi adlandırırlar. Faciə isə odur ki,onlar düşüncələrinin yanlış olduğunu bilmirlər. Şeirdə oxuyuruq:

-Qəzet almış Hacı Əhməd də...
-Pah! Oğlan, nəmənə? Sən özün gördün alanda?
-Belə nəql eylədilər!..
-Dəxi kim qaldı, xudaya, bu vilayətdə mənə?!
Bu isə pəs o ləinin də işi qullabıdır,
Dinü-imanı danıb, yoldan azıbdır, babıdır!

-Dəxi bir başqa xəbər?
-Hacı Cəfərin oğlu Vəli Qoyub uşqolaya oğlun...
-O qurumsaq da?
-Bəli!
-Sənə kim nəql eylədi bu sözü?
-Bilməm kim idi.
-Öylə isə ona da min kərə lənət deməli!..
Bu isə pəs o Iəinin də işi qullabıdır,
Dinü-imanı danıb, yoldan azıbdır, babıdır! [6, 262]

Dialoqdan açıq-aydın görünür ki, oxumuşlar "bab", yəni axmaq, dəli hesab edənlərin özləri bu sözlərə layiqdir. Əsərdə yenilik tərəfdarının obrazı yaradılmasa da şairin ifşa hədəfində istiqamət aydındır. Oxucu açıq-aydın görür ki, inkişaf iki gerilik tərəfdarının dediklərində deyildir, əksinədir.

**Nəticə**

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, cəhalət ilə yeniliyin mübarizəsi məsəsləsi M,Ə,Sabir irsində geniş şəkildə öz əksini tapmışdır. Şair satirik irsində çoxsaylı nümunələr əsasında sübut etməyə çalışmışdır ki, tərəqqinin, yeniliyin, xalqın xoşbəxt yaşadığı bir cəmiyyətin mövcudiyyatının əsası elm və təhsildir. Sabir keçmişin, bugünün və gələcəyin şairi olaraq toxunduğu bu mövzular və onların tədqiqi muasir dövrümüz üçün də aktualdır. Muasirləşən,daima yenilik axtarışında olan cəmiyyətimizdə bu mövzunun öyrənilməsi olduqca əhəmiyyətlidir.

## Ədəbiyyat siyahısı:

1. Ağazadə Y.B. Müasir ədəbi proses və satirik poeziya, "Elm və təhsil", Bakı, 2016
2. Haqverdiyev.Ə.B. Seçilmiş əsərləri, iki cilddə, I cild, "Lider nəşriyyat", Bakı, 2005
3. Xəndan Cəfər, "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri", Bakı, 1962
4. Mir Cəlal, F.Hüseynov, XX əsr Azərbaycan ədəbiyyatı, "Elm və təhsil", Bakı, 2018
5. "M.Ə.Sabir haqqında tədqiqlər" (Elmi məqalələr toplusu), Bakı, 2012
6. Sabir.M.Ə. Hophopnamə, iki cilddə, I cild, "Şərq-Qərb", Bakı, 2004
7. Sabir.M.Ə. Hophopnamə, iki cilddə, II cild, "Şərq-Qərb", Bakı, 2004
8. Vəzirov.N.B. Əsərləri, "Şərq-Qərb", Bakı, 2005

**Rəyçi:Fil.e.d. prof.Ağazadə Yədulla Bəbir oğlu**